**Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində~~, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində~~ təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində~~, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində~~ təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə **qərara alıram:**

1. Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində~~, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində~~ təhsil alan tələbələrə təqaüdlər aşağıdakı məbləğlərdə müəyyən edilsin:

1.1. Doktorantura *səviyyəsi* üzrə:[2]

*1.1.1.* elmlər doktoru hazırlığı üzrə doktorantlara - *450 (dörd yüz əlli)* manat[3]

*1.1.2.* fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - *300 (üç yüz)* manat[4]

1.2. ali təhsil müəssisələrində ~~və Azərbaycan Milli Elmlər Akademiyasında~~:[5]

*1.2.1.* adlı təqaüd alan tələbələrə – *204* manat[6]

*1.2.2.* magistratura səviyyəsi üzrə:

*1.2.2.1.* akademik göstəriciləri 91-100 bal olan tələbələrə – *240 (iki yüz qırx)* manat[7]

*1.2.2.2.* akademik göstəriciləri 71-100 bal olan tələbələrə – *180 (yüz səksən)* manat[8]

*1.2.2.3.* akademik göstəriciləri 51-100 bal olan tələbələrə – *120 (yüz iyirmi)* manat[9]

*1.2.3.* bakalavriat *(əsas (baza ali) tibb təhsili)* səviyyəsi üzrə:[10]

*1.2.3.1.* akademik göstəriciləri 91-100 bal olan tələbələrə – *200 (iki yüz)* manat[11]

*1.2.3.2.* akademik göstəriciləri 71-100 bal olan tələbələrə – *160 (yüz altmış)* manat[12]

*1.2.3.3.* akademik göstəriciləri 51-100 bal olan tələbələrə – *110 (yüz on)* manat[13]

1.3. orta ixtisas təhsili müəssisələrində:[14]

*1.3.1.* akademik göstəriciləri 91-100 bal olan tələbələrə – *110 (yüz on)* manat[15]

*1.3.2.* akademik göstəriciləri 71-100 bal olan tələbələrə – *90 (doxsan)* manat[16]

*1.3.3.* akademik göstəriciləri 51-100 bal olan tələbələrə – *70 (yetmiş)* manat[17]

*1.4. Peşə təhsili müəssisələrində:* [18]

*1.4.1. akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91 – 100 bal) olan tələbələrə – 110 (yüz on) manat*[19]

*1.4.2. akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71 – 100 bal) olan tələbələrə – 90 (doxsan) manat*[20]

*1.4.3. akademik göstəriciləri "3" – "5" (yüksək texniki peşə təhsili səviyyəsində 51 – 100 bal) olan tələbələrə – 70 (yetmiş) manat.*[21]

*2. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas*

*təhsili müəssisələrində~~, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində~~ əyani təhsil alan tələbələrə, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə, peşə təhsili müəssisələrində əyani təhsil alan tələbələrə isə aralıq qiymətləndirmə nəticələrinə görə bu Sərəncamın 1.2–1.4-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.*[22]

3. Bu Sərəncamın 1.1-ci *bəndi* ilə müəyyən edilmiş təqaüdlər yalnız dövlət büdcəsinin vəsaiti hesabına təhsil alan doktorantlara ~~*və peşə təhsili müəssisələrinin tələbələrinə*~~ ödənilsin.[23]

4. Müəyyən edilsin ki, təqaüdlərin ödənilməsi, doktorantura pilləsində, orta ixtisas və peşə təhsili müəssisələrində~~, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində~~ dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayı saxlanılmaqla, dövlət büdcəsindən təqaüd üçün ayrılan vəsait həddində həyata keçirilir.

5. "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 988; 2015, № 11, maddə 1339; 2016, № 1, maddə 134; 2017, № 5, maddə 934; 2018, № 5, maddə 1022) 1-ci, 1-1-ci və 2-ci hissələri ləğv edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

7. Bu Sərəncam 2019-cu il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 fevral 2019-cu il
№ 961

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 11 noyabr 2021-ci il tarixli **2995** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 12 noyabr 2021-ci il, № 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1232)**
2. 20 dekabr 2021-ci il tarixli **3057** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 21 dekabr 2021-ci il, № 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1470)**
3. 13 yanvar 2023-cü il tarixli **3718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 13 yanvar 2023-cü il, "Xalq" qəzeti, 14 yanvar 2023-cü il, № 8, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 111)**
4. 24 aprel 2024-cü il tarixli **43** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 aprel 2024-cü il, "Azərbaycan" qəzeti, 25 aprel 2024-cü il, № 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 4, maddə 390)**
5. 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 24 aprel 2024-cü il tarixli **43** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 aprel 2024-cü il, "Azərbaycan" qəzeti, 25 aprel 2024-cü il, № 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 4, maddə 390)** ilə adından, preambuladan, 1-ci, 2-ci və 4-cü hissələrdən "**, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində**" sözləri çıxarılmışdır.

[2] 13 yanvar 2023-cü il tarixli **3718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 13 yanvar 2023-cü il, "Xalq" qəzeti, 14 yanvar 2023-cü il, № 8, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 111)** ilə 1.1-ci bəndin ikinci abzasında "**360**" rəqəmləri "**400 (dörd yüz)**" sözləri ilə, üçüncü abzasında "**216**" rəqəmləri "**240 (iki yüz qırx)**" sözləri ilə əvəz edilmişdir.

24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.1-ci bəndin birinci abzasda "**pilləsi**" sözü "**səviyyəsi**" sözü ilə əvəz edilmişdir.

[3] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.1-ci bəndin ikinci abzas 1.1.1-ci yarımbənd hesab olunmuşdur və həmin yarımbənddə "**400 (dörd yüz)**" sözləri "**450 (dörd yüz əlli)**" sözləri ilə əvəz edilmişdir.

[4] 20 dekabr 2021-ci il tarixli **3057** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 21 dekabr 2021-ci il, № 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1470)** ilə 1.1-ci bəndin ikinci abzasında "**300**" rəqəmləri "**360**" rəqəmləri ilə, üçüncü abzasında "**180**" rəqəmləri "**216**" rəqəmləri ilə əvəz edilmişdir.

24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25**

---

**iyul 2025-ci il, № 152)** ilə 1.1-ci bəndin üçüncü abzas 1.1.2-ci yarımbənd hesab olunmuşdur və həmin yarımbənddə "**240 (iki yüz qırx)**" sözləri "**300 (üç yüz)**" sözləri ilə əvəz edilmişdir.

[5] 13 yanvar 2023-cü il tarixli **3718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 13 yanvar 2023-cü il, "Xalq" qəzeti, 14 yanvar 2023-cü il, № 8, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 111)** ilə 1.2-ci bəndin dördüncü abzasında "**174**" rəqəmləri "**195 (yüz doxsan beş)**" sözləri ilə, beşinci abzasında "**144**" rəqəmləri "**160 (yüz altmış)**" sözləri ilə, altıncı abzasında "**96**" rəqəmləri "**110 (yüz on)**" sözləri ilə, səkkizinci abzasında "**156**" rəqəmləri "**175 (yüz yetmiş beş)**" sözləri ilə, doqquzuncu abzasında "**132**" rəqəmləri "**145 (yüz qırx beş)**" sözləri ilə, onuncu abzasında "**90**" rəqəmləri "**100 (bir yüz)**" sözləri ilə əvəz edilmişdir.

24 aprel 2024-cü il tarixli **43** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 aprel 2024-cü il, "Azərbaycan" qəzeti, 25 aprel 2024-cü il, № 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 4, maddə 390)** ilə 1.2-ci bəndin birinci abzasından "**və Azərbaycan Milli Elmlər Akademiyasında**" sözləri çıxarılmışdır.

[6] 20 dekabr 2021-ci il tarixli **3057** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 21 dekabr 2021-ci il, № 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1470)** ilə 1.2-ci bəndin ikinci abzasında "**170**" rəqəmləri "**204**" rəqəmləri ilə, dördüncü abzasında "**145**" rəqəmləri "**174**" rəqəmləri ilə, beşinci abzasında "**120**" rəqəmləri "**144**" rəqəmləri ilə, altıncı abzasında "**80**" rəqəmləri "**96**" rəqəmləri ilə, səkkizinci abzasında "**130**" rəqəmləri "**156**" rəqəmləri ilə, doqquzuncu abzasında "**110**" rəqəmləri "**132**" rəqəmləri ilə, onuncu abzasında "**75**" rəqəmləri "**90**" rəqəmləri ilə əvəz edilmişdir.

24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin ikinci və üçüncü abzaslar müvafiq olaraq 1.2.1-ci və 1.2.2-ci yarımbəndlər hesab edilmişdir.

[7] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin dördüncü abzas 1.2.2.1-ci abzas hesab olunmuşdur və həmin abzasda "**195 (yüz doxsan beş)**" sözləri "**240 (iki yüz qırx)**" sözləri ilə əvəz edilmişdir.

[8] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin beşinci abzas 1.2.2.2-ci abzas hesab olunmuşdur və həmin abzasda "**160 (yüz altmış)**" sözləri "**180 (yüz səksən)**" sözləri ilə əvəz edilmişdir.

[9] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin altıncı abzas *1.2.2.3*-cü abzas hesab olunsun və həmin abzasda "**110 (yüz on)**" sözləri "**120 (yüz iyirmi)**" sözləri ilə əvəz edilmişdir.

[10] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin yeddinci abzas 1.2.3-cü yarımbənd hesab olunmuşdur və həmin yarımbəndə "**bakalavriat**" sözündən sonra "**(əsas (baza ali) tibb təhsili)**" sözləri əlavə edilmişdir.

[11] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin səkkizinci abzas 1.2.3.1-ci abzas hesab olunsun və həmin abzasda "**175 (yüz yetmiş beş)**" sözləri "**200 (iki yüz)**" sözləri ilə əvəz edilmişdir.

[12] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin doqquzuncu abzas 1.2.3.2-ci abzas hesab olunsmuşdur və həmin abzasda "**145 (yüz qırx beş)**" sözləri "**160 (yüz altmış)**" sözləri ilə əvəz edilmişdir.

[13] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.2-ci bəndin onuncu abzas 1.2.3.3-cü abzas hesab olunsun və həmin abzasda "**100 (bir yüz)**" sözləri "**110 (yüz on)**" sözləri ilə əvəz edilmişdir.

[14] 13 yanvar 2023-cü il tarixli **3718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 13 yanvar 2023-cü il, "Xalq" qəzeti, 14 yanvar 2023-cü il, № 8, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 111)** ilə 1.3-cü bəndin ikinci abzasında "**90**" rəqəmləri "**100 (bir yüz)**" sözləri ilə, üçüncü abzasında "**72**" rəqəmləri "**80 (səksən)**" sözləri ilə, dördüncü abzasında "**60**" rəqəmləri "**66 (altmış altı)**" sözləri ilə əvəz edilmişdir.

[15] 20 dekabr 2021-ci il tarixli **3057** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 21 dekabr 2021-ci il, № 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1470)** ilə 1.3-cü bəndin ikinci abzasında "**75**" rəqəmləri "**90**" rəqəmləri ilə, üçüncü abzasında "**60**" rəqəmləri "**72**" rəqəmləri ilə, dördüncü abzasında "**50**" rəqəmləri "**60**" rəqəmləri ilə əvəz edilmişdir.

24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.3-cü bəndin ikinci abzas 1.3.1-ci yarımbənd hesab olunsmuşdur və həmin yarımbənddə "**100 (bir yüz)**" sözləri "**110 (yüz on)**" sözləri ilə əvəz edilmişdir.

[16] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.3-cü bəndin üçüncü abzas 1.3.2-ci yarımbənd hesab olunmuşdur və həmin yarımbənddə "**80 (səksən)**" sözləri "**90 (doxsan)**" sözləri ilə əvəz edilmişdir.

[17] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.3-cü bəndin dördüncü abzas 1.3.3-cü yarımbənd hesab olunmuşdur və həmin yarımbənddə "**66 (altmış altı)**" sözləri "**70 (yetmiş)**" sözləri ilə əvəz edilmişdir.

[18] 11 noyabr 2021-ci il tarixli **2995** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 12 noyabr 2021-ci il, № 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1232)** ilə 1.4-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.4. Peşə təhsili müəssisələrinin tələbələrinə – 50 manat.~~

13 yanvar 2023-cü il tarixli **3718** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 13 yanvar 2023-cü il, "Xalq" qəzeti, 14 yanvar 2023-cü il, № 8, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il,**

**№ 1, maddə 111)** ilə 1.4-cü bəndin ikinci abzasında "**90**" rəqəmləri "**100 (bir yüz)**" sözləri ilə, üçüncü abzasında "**72**" rəqəmləri "**80 (səksən)**" sözləri ilə, dördüncü abzasında "**60**" rəqəmləri "**66 (altmış altı)**" sözləri ilə əvəz edilmişdir.

[19] 20 dekabr 2021-ci il tarixli **3057** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 21 dekabr 2021-ci il, № 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1470)** ilə 1.4-cü bəndin ikinci abzasında "**75**" rəqəmləri "**90**" rəqəmləri ilə, üçüncü abzasında "**60**" rəqəmləri "**72**" rəqəmləri ilə, dördüncü abzasında "**50**" rəqəmləri "**60**" rəqəmləri ilə əvəz edilmişdir.

24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.4-cü bəndin ikinci abzas 1.4.1-ci yarımbənd hesab olunmuşdur və həmin yarımbənddə "**100 (bir yüz)**" sözləri "**110 (yüz on)**" sözləri ilə əvəz edilmişdir.

[20] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.4-cü bəndin üçüncü abzas 1.4.2-ci yarımbənd hesab olunmuşdur və həmin yarımbənddə "**80 (səksən)**" sözləri "**90 (doxsan)**" sözləri ilə əvəz edilmişdir.

[21] 24 iyul 2025-ci il tarixli **678** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2025-ci il, "Xalq" qəzeti, 25 iyul 2025-ci il, № 152)** ilə 1.4-cü bəndin dördüncü abzas 1.4.3-cü yarımbənd hesab olunmuşdur və həmin yarımbənddə "**66 (altmış altı)**" sözləri "**70 (yetmiş)**" sözləri ilə əvəz edilmişdir.

[22] 11 noyabr 2021-ci il tarixli **2995** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 12 noyabr 2021-ci il, № 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1232)** ilə 2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə bu Sərəncamın 1.2-ci və 1.3-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.~~

[23] 11 noyabr 2021-ci il tarixli **2995** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 12 noyabr 2021-ci il, № 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 11, maddə 1232)** ilə 3-cü hissədə "**və 1.4-cü bəndləri**" sözləri "**bəndi**" sözü ilə əvəz edilmişdir və həmin hissədən "**və peşə təhsili müəssisələrinin tələbələrinə**" sözləri çıxarılmışdır.